

**ŞƏRQ qapısı**

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 226 (23.868)

*4 dekabr 2021-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

# Ordubad rayonunun Dırnıs kəndi abadlaşan kəndlər sırasına qoşulub

Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım yerinə yetirilsin".*** Muxtar respublikada ulu öndər Heydər Əliyevin arzuları, planları artıq reallığa çevrilmiş, Naxçıvan onun yolu ilə gedərək tərəqqiyə qovuşmuşdur. Muxtar respublikanın digər bölgələri kimi Ordubad rayonu da öz simasını dəyişir, yeni görkəm alır, kəndlərin inkişafı, abadlaşdırılması diqqətdə saxlanılır. Rayonun hərtərəfli dövlət qayğısı ilə əhatə olunan və böyük turizm potensialı olan yaşayış məntəqələrindən biri də Dırnısdır. Kənddə geniş tikinti-quruculuq işləri aparılmış, əhali rahatlığına xidmət edən sosial obyektlər tikilmişdir.

## Dırnıs kənd məktəbində müasir tədris imkanları mövcuddur





Dekabrın 3-də Dırnıs kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məktəbdə yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 3 mərtəbədən ibarət olan 216 şagird yerlik məktəbdə 17 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, 2 elektron lövhəli sinif, şahmat sinfi, kompüter, psixoloq və müəllimlər otaqları, hərbi kabinə, STEAM kabinəsi, kitabxana, qarderob və idman zalı yerləşir. Kitabxana



fondunda 4550 kitab vardır.

Ali Məclisin Sədri bölgələrin tarixi ilə bağlı nəşr olunmuş kitabların kitabxanalara verilməsi barədə tapşırıq vermişdir.

STEAM kabinəsində 1 elektron lövhə, 2 kompüter, 3D printer quraşdırılmışdır. Kabinə mikrobit, arduino setləri və digər öyrədici STEAM qurğuları, həmçinin yeni nəşr olunan ədəbiyyat və dərsliklərlə təchiz edilmişdir. Şagirdlər hazırladıqları "3D printerdə hazırlanmış kəşfiyyatçı tank", "Yanğın əleyhinə xəbərdaredici qurğu" və "Xətt izləyən robot" layihələrini təqdim etmişlər.

Müəllim Etibar Süleymanov yaradılan şəraitə görə minnətdarlıq etmişdir.

Məktəbdə internetə çıxışı olan 20 kompüter və 4 elektron lövhə quraşdırılmışdır. Ali Məclisin Sədri elektron lövhəli sinifdə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə 200-dən artıq təhsil müəssisəsi arasında "Naxçıvan qalaları" mövzusunda keçilən interaktiv dərsi izləmişdir.

Məktəbin kimya, biologiya və fizika laboratoriyaları müasir avadanlıqlarla təmin olunmuşdur. Əyani vasitələrlə təminat dərslərin təcrübə yolu ilə keçirilməsinə imkan yaradır. Bu da dərsləri daha yaxşı qavramaqda kömək edir, biliyin təcrübə əsasında möhkəmləndirilməsinə şərait yaradır.

Gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsi, onların hərbi biliklərə yiyələnməsi sonrakı dövrdə peşəkar hərbçi kimi yetişmələrinə və formalaşmalarına xidmət edir. İstifadəyə verilən hərbi kabinə, bu mənada, mühüm əhəmiyyət daşıyır. Bildirilmişdir ki, hazırda məktəbin 1 məzunu Azərbaycan Ali Hərbi Məktəbinin 3-cü kursunda təhsilini davam etdirir. 5 məzun isə zabit kimi Azərbaycan Silahlı Qüvvələrində xidmət edir. Onlar Vətən müharibəsi iştirakçılarıdır. Məktəbin bir məzunu, kapitan Vüqar Nəcəfov İkinci Qarabağ müharibəsində şücaət göstərərək şəhidlik zirvəsinə ucalmışdır. Məktəbin hərbi müəllimi isə Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun təşkil etdiyi zabit hazırlığı kursunu bitirərək leytenant rütbəsi almışdır.

Ali Məclisin Sədri Vətən müharibəsi iştirakçıları ilə şagirdlər arasında görüşlərin keçirilməsi barədə tapşırıq vermişdir.

Məktəbin bütün lazımi əyani vasitələrlə təchiz olunmuş şahmat sinfi, geniş idman zalı və məktəbin həyətində qurulan açıq idman qurğuları şagirdlərin fiziki sağlamlığına və əqli inkişafına xidmət edəcəkdir. İdman zalında bədən tərbiyəsi və fiziki tərbiyə fənlərinin tədrisi, eləcə də şagirdlər arasında bir sıra idman növləri üzrə yarışların keçirilməsi üçün müasir şərait mövcuddur. İdman zalına baxış zamanı bildirilmişdir ki, məktəbdə basketbol və tennis idman klubları yaradılmışdır.

Şahmat sinfinə baxış zamanı Ali Məclisin Sədri onlayn şahmat yarışlarına üstünlük verilməsi barədə tapşırıq vermiş, Naxçıvanda şahmatın tədrisinin nümunə kimi təqdim olunduğunu bildirmişdir.

Sonra məktəbin pedaqoji kollektivi ilə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikasının bütün şəhər, qəsəbə və kəndlərində genişmiqyaslı quruculuq işləri aparılır. Kompleks quruculuq tədbirləri zamanı yeni məktəb binalarının inşasına xüsusi diqqət yetirilir, təhsilin inkişafı, innovativ tədris metodlarının tətbiqi sahəsində ardıcıl tədbirlər həyata keçirilir, təhsil müəssisələrinin maddi-tədris bazası möhkəmləndirilir. Bu ilin ötən dövründə 7 ümumtəhsil müəssisəsi yenidən qurularaq istifadəyə verilmişdir. Təhsil infrastrukturunun yaxşılaşdırılması nəticəsində müasir laboratoriyalar, fənn kabinələri, idman zalları, açıq idman qurğuları müəllim və şagirdlərin istifadəsinə verilmişdir. Ümumtəhsil məktəblərində yaradılan müasir tədris şəraiti təhsildə innovasiyaların tətbiqinə geniş imkanlar açmışdır. Bu günə qədər 53 təhsil müəssisəsində STEAM kabinələri yaradılmış, 50 təhsil müəssisəsində isə kabinələrin yaradılması istiqamətində işlər davam etdirilir. Dırnıs kənd tam orta məktəbinin də maddi-tədris bazası yaxşılaşdırılmış, müasir tədris şəraiti yaradılmışdır. Son 5 ildə məktəbin 42 məzunundan 30-u, yaxud 71 faizi ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmuş, onlardan 5-i 500-700 arası bal toplamışdır. Rəhman Məmmədov göstərilən hərtərəfli diqqət və qayğıya görə muxtar respublikanın təhsil işçiləri adından minnətdarlıq etmişdir.

Məktəbin gənc müəllimi Aynur Zəkili Ali Məclisin Sədrinə minnətdarlıq edərək demişdir: "1995-ci ildə muxtar respublika rəhbəri seçilərkən təhsil quruculuğunu inkişafın əsas istiqaməti kimi müəyyənləşdirmişdiniz. İndi muxtar respublikamızda təhsilin səviyyəsi göz qabağındadır. Təhsil müəssisələrində müasir tədris şəraiti yaradılmışdır. Məktəblərimiz kompüter, elektron lövhə, dərslik, bədii ədəbiyyat və digər tədris vəsaitləri ilə təmin olunmuşdur. Bu gün Dırnıs kənd tam orta məktəbi də Ali Məclis Sədrinin qayğısı sayəsində müasir məktəblər sırasına qoşulur. Hərtərəfli tədris şəraiti yaradılan məktəb bu gün istifadəmizə verilir. Bu, bütün




müəllim, şagird və valideynlər üçün böyük hədiyyədir. Yaradılan müasir tədris şəraiti şagirdlərimizin daha yaxşı təhsil almalarına geniş imkanlar açır".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Dırnıs kənd tam orta məktəbinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Cəmiyyət təhsilsiz inkişaf edə bilməz. Təhsilin də əsası məktəbdə qoyulur. Ona görə də məktəblər müasir tədrisin tələbləri səviyyəsində qurulmalıdır. Müstəqil ölkəmizin gələcəyinin

*Ardı 2-ci səhifədə*



təminatçısı olan gənclərin yetişdirilməsi üçün onlar yaxşı təhsil almalı, vətənpərvər ruhda böyüməlidir. Gənclər elə yetişdirilməlidir ki, onların nəinki Azərbaycanda, həmçinin istənilən xarici ölkələrdə ali təhsil almaq, peşə öyrənmək imkanları olsun. Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***“Gənclərimizə yüksək təhsil verməklə bərabər, onları əsl vətəndaş kimi böyütməliyik”.*** Məktəbdə təhsillə bərabər, gənclərimizi həm də vətənpərvər ruhda böyütməliyik ki, gələcəkdə ölkəsi, cəmiyyət və ailəsi üçün yararlı vətəndaşa çevrilə bilsin. Bu gün Dırnıs kənd tam orta məktəbinin yaxşı müəllim kollektivi formalaşıb. Bu özünü məktəbin son 5 ildəki nəticələrində göstərir. Məktəbi bitirənlərin 71 faizi ali və orta ixtisas məktəblərinə qəbul olunub. Bu da muxtar respublikanın orta göstəricisinə yaxındır.

Ali Məclisin Sədri bu münasibətlə kollektivə təşəkkür edərək demişdir: Ölkəmizin gələcəyi müəllim kollektivinin fəaliyyətindən asılıdır. Burada yetişdirilən gənclər ölkənin gələcəyini təmin edəcək, müstəqilliyimizi, dövlətçiliyimizi davam etdirəcəklər. Hər bilikli gənc də ölkənin fəxridir. Harada olmalarından asılı olmayaraq, onlar Azərbaycançılıq ideologiyası ilə yaşamalı, Vətənə xidmət haqqında düşünməli, eyni zamanda özlərinin davranışları ilə nümunə olmalıdırlar. Bunların hamısının əsası isə məktəbdə qoyulur. Yaradılan şərait, eyni zamanda kollektivin öz işinə məsuliyyətlə yanaşması gələcəkdə bu məktəbin nailiyyətlərinin artmasına imkan verəcəkdir. Bu gün istifadəyə verilən



məktəb binası uzun illər istifadə olunmalı, qurulanlar qorunmalıdır.

“Təhsil ocağında tədrisin səviyyəsi yüksəldilməli, məktəbi bitirən hər bir gənc mütləq bir peşəyə yönləndirilməlidir”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, bunun üçün hər cür şərait yaradılmışdır. Hər bir müəllim yetişdirdiyi gənclərlə ölkənin gələcəyinə xidmət etmiş olur. Ona görə də ölkəmizin gələcəyi naminə hər kəs gənclərin gələcəyə hazırlanması işinə töhfə verməlidir. Məktəb işi bu istiqamətdə xüsusən fərqlənməlidir. Dövlət, məktəb, cəmiyyət birgə fəaliyyət göstərərək ölkənin bu gününü və gələcəyini təmin etməlidir. Bu gün ölkəmizdəki dövlət-xalq birliyi inkişafın təminatçısıdır. Bu yolun da əsası ümummilli liderimizin Azərbaycana rəhbərliyi illərində qoyulub. Müasir Dırnıs kəndi bu yolun uğurla davam etdirilməsinə nümunədir.

Ali Məclisin Sədri kollektivə tədrisdə uğurlar arzulamışdır.

Binanın həyətində bufet və qazanxana tikilmiş, açıq idman qurğuları quraşdırılmış, yaşıllıq salınmışdır.



## Dırnıs kənd avtomobil yolu yenidən qurulub

Naxçıvan Muxtar Respublikasında müasir yol-nəqliyyat infrastrukturu daim diqqətdə saxlanılır. Mərkəzlə yanaşı, bölgələrdə də müasir yolların salınması əhalinin təhlükəsizliyini və rahatlığını təmin edir, sosial-iqtisadi inkişafa xidmət göstərir.

Dekabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yolda yaradılan şəraitlə tanış olmuşdur.

Bildirilmişdir ki, ümumi uzunluğu 5,2 kilometr olan yola asfalt örtük salınmış, 1300 metr beton su kanalı çəkilmiş, 4 metal su keçidi qoyulmuşdur. Həmçinin Ali Məclisin Sədrinə Vənənd-Pəzməri yolunda aparılan yenidənqurma işləri haqqında da məlumat verilmişdir.

Ali Məclisin Sədri Vənənd-Pəzməri avtomobil yolunda işlərin gələn ildən etibarən davam etdirilməsi barədə tapşırıq vermişdir.

## Dırnıs kəndində müasir idarəetmə sistemi yaradılıb





Dekabrın 3-də Dırnıs kənd mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binada yerləşən təşkilatların fəaliyyəti və yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, üçmərtəbəli kənd mərkəzində Dırnıs və Anaqut kəndlərini əhatə edən inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, Mədəniyyət evi, arxiv, statistika otağı, 44 yerlik zal və qazanxana yerləşir. Kitabxana fondunda 9482 kitab vardır. Rabitə evində 384 nömrə tutumlu yeni nəsil ATS quraşdırılmışdır. Kənddə 176 internet istifadəçisi vardır.

Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının 59 üzvü vardır, onlardan da 8-i gənc, 32-si isə qadındır. Ərazi ilk təşkilatının sədri Raziyyə Bağırova partiya üzvləri adından yaradılan şəraitə görə minnətdarlıq edərək demişdir: “Ali Məclis Sədrinin Dırnıs kəndinə



gəlişi sakinlərin sevincinə səbəb olmuşdur. Kənddə yeni məktəb, həkim ambulatoriyası, kənd və xidmət mərkəzləri istifadəyə verilmişdir. Bizə hədiyyə edilən quruculuq ünvanlarını qoruyub saxlayacaq, göstərilən etimadı doğruldacağıq”.

İnzibati ərazi dairəsi üzrə nümayəndə əvəzi Cabir Hüseynov demişdir: “Dırnıs kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik Anaqut və Dırnıs kəndlərini əhatə edir. Kənd sakinlərinin məşğuliyyəti meyvəçilik, tərəvəzçilik, heyvandarlıq, arıçılıqdır. Ailə təsərrüfatları dövlət qayğısından istifadə edərək məhsul çeşidlərini artırır, istehsal etdikləri məhsulları rahat şəkildə yarmarka və bazarlarda satırlar. Bununla da onlar öz dolanışıqlarını yaxşılaşdırmaqla yanaşı, məhsul bolluğuna töhfə verirlər”.

Ali Məclisin Sədri iclas zalında maarifləndirici tədbirlərin və görüşlərin keçirilməsi barədə tapşırıqlar vermişdir.

Bildirilmişdir ki, kənddə əsas diqqət yetirilən sahələrdən biri də baytarlıq işinin təşkilidir. Bu gün Ordubad rayonunda epizootik vəziyyət sabitdir. Bunun səbəbi dərman preparatları və digər tibbi avadanlıqlarla təminat, peyvəndləmə və dezinfeksiya tədbirlərinin vaxtında görülməsidir. Aparılan profilaktik tədbirlərin nəticəsidir ki, rayonda bu sahədə heç bir xəstəlik müşahidə olunmur.

Bina istilik, elektrik və su sistemi ilə təchiz olunmuş, həyətdə abadlıq işləri aparılmış, yaşıllıqlar salınmışdır.

*Ardı 3-cü səhifədə*

# Dırnıs kəndində əhaliyə nümunəvi tibbi xidmət göstəriləcək





Muxtar respublikada əhalinin sağlamlığı diqqət mərkəzində saxlanılır, yeni səhiyyə ocaqları tikilərək istifadəyə verilir. Son illər kənd yaşayış məntəqələrində tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi sahəsində görülən tədbirlər bu baxımdan mühüm əhəmiyyət daşıyır.

Dekabrın 3-də Dırnıs kəndində həkim ambulatoriyasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov səhiyyə ocağında yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, kənd mərkəzində yerləşən həkim ambulatoriyasında baş həkim, stomatoloq, palata, doğuş, manipulyasiya, peyvənd, qeydiyyat otaqları və aptek vardır. Həkim ambulatoriyası stomatoloji qurğu, doğuş masası, quruducu şkaf, peyvənd və təcili yardım çantaları, mikroskop, sentrifuqa, qlükometr, boyölçən, tərəzi, soyuducu və digər tibbi avadanlıqlarla təmin edilmişdir.

Ambulatoriyanın baş həkimi Əhəd Cəfərli yaradılan şəraitə görə minnətdarlıq edərək demişdir: "Əvvəllər uyğunlaşdırılmış binada fəaliyyət göstərirdik. Bu gün isə bizim üçün müasir iş şəraiti yaradılmışdır. Ambulatoriya 5 kəndə xidmət edir. Çalışacağıq ki, göstərilən etimadı doğruldaq, bundan sonra da əhaliyə daha yaxşı xidmət göstərək".

Ali Məclisin Sədri peyvənd və patronaj işinin təşkili, eləcə də səhiyyə maarifinə üstünlük verilməsi, rayon mərkəzindən həkim briqadalarının göndərilməsi, bu sahədə broşürlərin hazırlanması barədə tapşırıqlar vermişdir.



# Xidmət mərkəzi gündəlik ehtiyacların ödənilməsini təmin edəcək






Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Dırnıs kəndində xidmət mərkəzinin də açılışını etmişdir.

Məlumat verilmişdir ki, xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları və anbar yerləşir. Burada xidmətin təşkili üçün nümunəvi şərait yaradılmış, 5 nəfər işlə təmin olunmuşdur.

Ali Məclisin Sədri yerli məhsulların satışına üstünlük verilməsi barədə tapşırıqlar vermişdir.

Sonra kənd sakinləri ilə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Dırnıs kəndinin müasir kəndlər sırasına qoşulması münasibətilə sakinləri təbrik edərək demişdir: Bu gün Dırnıs kəndinin həyatında əlamətdar gündür. Ona görə ki, yeni sosial obyektlər sakinlərin istifadəsinə verilir, yollar abadlaşıb, infrastruktur yenilənib. Bunlar həm sakinlərə xidmət edəcək, həm də dövlət qurumlarının iş şəraitini yaxşılaşdıracaq. Müasir tələblər səviyyəsində məktəb qurulub ki, buradan da hər bir ailənin övladı istifadə edəcək.

Ali Məclisin Sədri demişdir: Kənddə ailə təsərrüfatları formalaşıb, inkişaf edib. Ərazi imkan verir ki, burada heyvandarlıq, arıçılıq, meyvəçilik və bitkiçilik inkişaf etdirilsin. Bütün bunlardan səmərəli istifadə edərək gözəl, səfalı kəndi daha da abadlaşdırmaq lazımdır. Dövlət əhalinin rahatlığı üçün hər cür şərait yaradıb. Bütün bu işlərin görülməsi üçün ölkədə sabitlik, inkişaf və iqtisadi imkanlar olmalıdır. Ümummilli lider Heydər Əliyev siyasətinin davam etdirilməsi, o yola sədaqət bu gün kəndlərimizi, ölkəmizi abadlaşdırmaqla bərabər, ərazi bütövlüyümüzü təmin etdi. Bunların hamısı bugünkü reallıqlardır. Həmin reallıqlar Dırnıs kəndinin timsalında aydın görünür. Bu gün ölkəmizin inkişafı hər kəsdə təəccüb doğurur. Bu da bizim üçün qürurdur. Qısa müddətdə Azərbaycan inkişaf etmiş ölkələr sırasında özünəlayiq yer tutub. Ölkəmiz iqtisadi imkanlarına və təhsilin səviyyəsinə görə ön sıralarda dayanır. Bütün bunlar hamısı nailiyyətdir. Görülən işlər ölkəmizin bu günü ilə yanaşı, eyni zamanda onun gələcəyini də təmin edəcəkdir. Bütün bunlara dövlət-xalq birliyi nəticəsində nail olunub.

Ali Məclisin Sədri bildirmişdir ki, kənddə torpaqlar əkilməli, heyvandarlıq, maldarlıq, arıçılıq, əkinçilik inkişaf etdirilməli, ailə təsərrüfatları genişlənməlidir. Bütün bunlar əhalinin rahat yaşayışına və ölkəmizin inkişafına xidmət edəcəkdir. Vaxtilə burada məktəblilərin yay düşərgəsi var idi. Bu kəndlərin, ümumiyyətlə, hamısı artıq turistik bölgəyə çevrilir. Bu kəndin də inkişafında görülən işlərin çox böyük nəticəsi olacaq. Davamlı inkişaf üçün yaradılanlar gərək qorunsun. O vaxt məktəbdə 5 kompüter var idisə, bu gün 20 kompüter var. Kənddə internet var. Torpaqlardan səmərəli istifadə etməliyik ki, muxtar respublikamız inkişaf edərək ölkəmizin inkişafına öz töhfəsini verə bilsin. Hər zaman bu ərazi özünün abhavası ilə, insanların qonaqpərvərliyi ilə diqqət çəkib. Görülən işlərdən sonra qonaqlar daha da çoxalacaq.

Ali Məclisin Sədri sakinlərə firavan həyat, uzun ömür arzulamışdır.

Dırnıs kənd sakinləri adından minnətdarlıq edən Rza Allahyarov demişdir: "Ali Məclis Sədrinin kəndimizə gəlişi bizə hər zaman sevinc bəxş edir. Mən 1954-1957-ci illərdə Dırnıs kənd məktəbində təhsil almışam. Əvvəllər Pəzməridə, Kələkidə ibtidai, Unusda və Əylisdə natamam orta məktəb var idi, Anaqutda isə məktəb yox idi. Orta məktəb yalnız bu kənddə idi. Ona görə də yuxarı kəndlərdən gəlib burada dərs keçirdik. O vaxt bu məktəbdə 5 sinif, bir müəllimlər otağı, bir kitabxana var idi. Bəzən dərsləri müəllimlər otağında, kitabxanada keçirdik. İndi isə belə möhtəşəm bina bizim istifadəmizə verilmişdir. Bu, dövlət qayğısının əyani ifadəsidir. Bizim də vəzifəmiz bunları qoruyub saxlamaqdır. Kəndarası yollara asfalt salınıb, körpülər tikilib. Bu gün Azərbaycan ən inkişaf etmiş dövlətlər sırasındadır. Ölkəmizin ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası da inkişafın yeni mərhələsindədir. Dövlətimizin, dövlətçiliyimizin sükanı etibarlı əllərdədir. "Kitabi-Dədə Qorqud" dastanında da yazılır ki, "Torpağı əkmirsənsə, qorumağına, qorumursansa, əkməyinə dəymə". Biz də çalışacağıq ki, torpaqlarımızı əkək, bol məhsul götürək". Rza Allahyarov bildirmişdir ki, Vətən müharibəsi qələbəmizlə başa çatdı. Var olsun Ali Baş Komandanımız, var olsun ordumuz, var olsun Azərbaycan xalqı.

* * *

Dırnıs kəndində yeni sosial obyektlər tikilərkən bir sıra abadlıq işləri də görülmüşdür. Kənddə 830 metr yeni fiber-optik, 1150 metr yeraltı kabel, 1610 metr hava rabitə xətti çəkilmişdir. Həmçinin elektrik təsərrüfatı tamamilə yenilənmiş, 71 elektrik dirəyi yenisi ilə əvəz edilmiş, 6500 metr məftil naqil kabel xətti ilə əvəzlənmiş, 3 güc transformatoru təmir edilmişdir. Bundan başqa, 170 poqonometr polietilen borularla yeni tikililərə qaz xətti çəkilmiş, 2085 poqonometr qaz xəttində təmir-bərpa işləri aparılmışdır. Eyni zamanda kənddə içməli su təminatını yaxşılaşdırmaq məqsədilə 60 metr kaptaj tikilmiş, 1550 metr məsafədən su xətti çəkilmiş, paylayıcı içməli su xəttində təmir-bərpa işləri görülmüşdür.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Kamil Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbir keçirilib



*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Azərbaycanın görkəmli xalçaçı-rəssamı, professor Kamil Əliyevin 100 illik yubileyinə həsr olunmuş sərgi açılmışdır.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Ülvi Hüseynli çıxış edərək bildirmişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2021-ci il oktyabrın 12-də "Kamil Əliyevin 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncam imzalamışdır. Bu Sərəncam Azərbaycan xalçaçılıq və dekorativ-tətbiqi sənətinin qədim ənənələrinin qorunub saxlanılmasında və inkişaf etdirilməsində mühüm xidmətləri olan Kamil Əliyevin fəaliyyətinə verilən yüksək qiymət kimi böyük dəyərə malikdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2021-ci il oktyabrın 16-da Kamil Əliyevin 100 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında qeyd olunması ilə bağlı Sərəncam imzalamış, "Tədbirlər Planı" təsdiq olunmuşdur. "Tədbirlər Planı"na əsasən AMEA Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutunun birgə təşkilatçılığı ilə "Kamil Əliyev-100" mövzusunda elmi konfrans, Naxçıvan Dövlət Xalça Muzeyində ali təhsil müəssisələrində aid ixtisas üzrə təhsil alan tələbələr üçün açıq dərslər keçilmiş, AMEA Naxçıvan Bölməsinin "Elmi əsərlər" jurnalının bir nömrəsi Kamil Əliyevin həyat və yaradıcılığına həsr olunmuşdur. Həmçinin Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutunun aid ixtisaslarında Kamil Əliyevin yaradıcılığına həsr olunmuş dərslər tədris edilmişdir. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Xalq rəssamı Kamil Əliyevin yaradıcılığına həsr olunmuş sərginin açılması və yubileyinin qeyd olunması da bu tədbirlərin davamı kimi mühüm əhəmiyyətə malikdir.



Ülvi Hüseynli bildirmişdir ki, Kamil Əliyevin yaradıcılığında süjetli xalılar və portret-xalçalar aparıcı mövqe tutur. Onun qüdrətli söz dühalarına, görkəmli siyasi xadimlərə həsr olunan və yüksək professionallığı, bədii-estetik mükəmməlliyi ilə seçilən portret-xalçaları yüksək dəyərə malikdir. Dünyanın mötəbər muzey, qalereya və sərgi salonlarında dəfələrlə nümayiş etdirilən bu əsərlər sənətkara böyük nüfuz qazandırmışdır. Onun müəllifi olduğu portret-xalçalarda ulu öndər Heydər Əliyev və Mustafa Kamal Atatürk kimi tarixi şəxsiyyətlərin, Nizami Gəncəvi, Məhəmməd Füzuli və digər görkəmli ədiblərin əks olunması rəssamın tariximizə, mənəvi dəyərlərimizə bağlılığının təzahürüdür.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Əməkdar rəssam Ülviyyə Həmzəyeva qeyd etmişdir ki, yeni sərginin ekspozisiyasında rəssamın əsərlərini əks etdirən 26 fotoəks, Hüseyn Cavid ev-muzeyinin ekspozisiyasında sərgilənən "Azərbaycan" xalçası və sənətkara həsr olunmuş kitablar nümayiş edilir. Diqqətə çatdırılmışdır ki, Kamil Əliyev bir müddət Respublika Bədii Fonduna rəhbərlik etmiş, sonralar Bakı Zərgərlik Fabrikində direktor vəzifəsində çalışmışdır. Həmin illərdə o yalnız xalı, parça kimi toxuma sahələrində yox, həmçinin qızıl, gümüş və digər materiallarda da mahir bədii tərtibatçı, ornament rəssamı kimi özünün məharətini nümayiş etdirmiş, 1950-ci illərdən etibarən Kamil Əliyevin yaradıcılığında süjetli xalıların, portret-xalçaların yaradılması böyük yer tutmuşdur. Bu illərdə sənətkar bir-birinin ardınca yüksək professionallıqla Azərbaycan klassiklərinin və görkəmli dövlət xadimlərinin portretlərini yaratmışdır ki, onlardan bir neçəsi sərgidə yer alır. Sərgidə ulu öndər Heydər Əliyevə müxtəlif dövrlərdə ithaf olunan, həmçinin dahi şairimiz Nizami Gəncəvinin, gürcü şairi Şota Rustavelinin portretləri nümayiş olunur. Ülviyyə Həmzəyeva Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvləri adından görkəmli xalçaçı-rəssam Kamil Əliyev irsinə göstərdiyi böyük diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

Azərbaycan Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova çıxışında qeyd etmişdir ki, dahi sənətkar bütün ömrünü xalça sənətinin parlaq ənənələrinin yaşadılmasına və inkişafına həsr etmişdir. Kamil Əliyevin misilsiz nailiyyəti – xalçanın səthində realistik, sanki canlı insan obrazını yaradan ən incə rəng, işıq-kölgə çalarları ilə işləmək bacarığı idi. Yaradıcılıq boyu Kamil Əliyev onlarla xalça – Azərbaycan və digər ölkələrin tanınmış siyasi və incəsənət xadimlərinin portretlər qalereyasını yaratmışdır. Klassik xalça irsindən bəhrələnən rəssam çoxsaylı ornamental kompozisiyaların da müəllifidir. Sənətkar sarı və qızılı rənglərin çoxsaylı çalarlarını və onların ahəngini əsərlərinin böyük qismində məharətlə istifadə etmişdir. Görkəmli rəssamın yaradıcılığı dövlət tərəfindən daim yüksək dəyərləndirmişdir. O, bir çox dövlət mükafatları ilə təltif olunmuş, sağlığında 80 illiyi, vəfatından sonra isə 90 illiyi dövlət səviyyəsində qeyd edilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Kamil Əliyevin 100 illik yubileyinin qeyd edilməsi haqqında" 2021-ci il 12 oktyabr tarixli Sərəncamına əsasən Azərbaycan Milli Xalça Muzeyində sənətkarın yaradıcılıq nümunələrindən ibarət sərginin və əsərlərinin tanıdılması, təbliği istiqamətində tədbirlərin təşkil olunduğunu vurğulayan Şirin Məlikova muxtar respublikada da sərginin yüksək səviyyədə təşkilini diqqətə çatdırmışdır.

Kamil Əliyevin ev-muzeyinin direktoru, qızı Nərminə Əliyeva atasının dünyada tanınmasından, ölkəmizdə xatirəsinin əziz tutulmasından qürur hissi duyduğunu vurğulamış, muxtar respublikada onun yaradıcılığına göstərilən diqqətə görə minnətdarlığını bildirmişdir. Nərminə Əliyeva qeyd etmişdir ki, Kamil Əliyev tanınmış xalçaçı-rəssam olmaqla yanaşı, həm də alicənab, zəhmətkeş insan, ailəcanlı həyat yoldaşı, qayğıkeş ata idi. Belə bir sənətkarın ailəsində dünyaya göz açmaq, onun dəyərli irsini qoruyub yaşatmaq missiyasını üzərinə götürmək, yolunu davam etdirmək olduqca qürurverici haldır, fəxrdir. Kamil Əliyev sənət sahəsində olduğu kimi, həyatda da milli-mənəvi irsə hörməti, ailə dəyərlərinə bağlılığı, hər kəsə qarşı həssas münasibəti, diqqətcilliyi, nəvazişkarlığı, cəmiyyət içində adət-ənənələrimizə uyğun mütəvazi davranışı ilə seçilirdi. Nərminə Əliyeva Kamil Əliyev irsinə verilən dəyərə görə minnətdarlıq etmişdir.

Sonra tədbir iştirakçıları Azərbaycanın görkəmli xalçaçı-rəssamı Kamil Əliyevin 100 illik yubileyinə həsr edilmiş, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda nümayiş olunan sərgiyə baxmışlar.

**"Şərq qapısı"**

***Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən təsdiqlənən "Tədbirlər Planı"na əsasən tanınmış Azərbaycan xalçaçı-rəssamı, professor Kamil Əliyevin 100 illik yubileyinin ölkə səviyyəsində qeyd olunması əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan mədəniyyətimizə və milli dəyərlərimizə yüksək qayğının məntiqi davamıdır. Biz də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyində dahi sənətkarın mənalı ömür yoluna, yaradıcılığına həsr olunmuş sənət əsərlərindən ibarət sərgidə iştirak edib qonaqlarla həmsöhbət olduq.***



# Sənəti yaşadanları sənət də yaşadır

İlk həmsöhbətimiz ***Azərbaycan Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova*** oldu: – Azərbaycan torpağı lap qədim zamanlardan öz dahi şəxsiyyətləri, əvəzolunmaz sənətkarları ilə seçilib. Bu gün diyarımızın hansı tərəfinə getsək, elə bir ünvan tapa bilmərik ki, oradan yurdumuzun adını daim öz uğurları ilə yaşadan insan tapılmasın. Elə bu məqamda, 100 illik yubileyinə toplaşdığımız dahi sənətkar, xalçaçı-rəssam Kamil Əliyev də Azərbaycanın yaradıb-yaşadan nəsillərindən olmuşdur. Onun yubileyinin muxtar respublikada da keçiriləcəyi xəbərini eşitdikdə çox şad oldum, sevindim. Çünki sənət dünyası Bəhruz Kəngərli ideyası, Memar Əcəmi fikirləri ilə yoğurulan bu torpağa bir neçə dəfə səyahət etmişdim, bu dəfə isə daha böyük bir məqsəd üçün gəlirdim. Kamil Əliyevin sirli-sehrli dünyasına Naxçıvan diyarından səyahət etmək üçün. Sənətkarın bir ümmanı xatırladan yaradıcılıq yolu haqqında saatlarca danışmaq olar. O, bütün ömrünü xalqımızın mədəniyyəti tarixində müstəsna yer tutan xalçaçılıq sənətinin parlaq ənənələrinin yaşadılmasına və inkişafına sərf edib. Fitri istedada malik rəssam milli naxış elementlərindən uğurla bəhrələnərək rəngarəng dekorativ motivlər yaradıb, Azərbaycan xalçaçılığı və tətbiqi sənətini daim yeni ornamentlərlə zənginləşdirib. Kompozisiya özünəməxsusluğu, rəng ahəngdarlığı və süjet əlvanlığı rəssamın Azərbaycan xalçaçılıq məktəblərinin xüsusiyyətlərini özündə cəmləşdirən çeşnilər əsasında toxunmuş xalçalarının başlıca səciyyəvi cəhətləridir. Onun qüdrətli söz dühalarına, görkəmli siyasi xadimlərə həsr olunan və yüksək professionallığı, bədii-estetik mükəmməlliyi ilə seçilən portret-xalçaları incəsənətimizin qızıl fondunun qiymətli nümunələrindəndir. Kamil Əliyevin əsərləri dünyanın mötəbər muzey, qalereya və sərgi salonlarında dəfələrlə nümayiş etdirilib. Böyük sənətkar xalçaçı kadrların hazırlanması işinə mühüm töhfələr verib. Hazırda da muzeyimizdə sənətkarın yüzə yaxın bir-birindən zəngin yaradıcılıq nümunələri qorunub saxlanılır. O yaradıcılıq nümunələri ki onlara hər baxdıqda bir daha şahidi oluruq ki, sənəti yaşadanları sənət də yaşadır.



***Rəssamın qızı Nərminə Əliyeva***: – O öz ömrünü xalqının, millətinin sənətini yaşatmağa həsr edən dahi sənətkar olduğu kimi, həm də qayğıkeş bir ailə başçısı, mehriban bir ata idi. Lap kiçik yaşlarımdan, özümü dərk etməyə başladığım ilk andan etibarən atamı əlində fırça, hana qarşısında rəngarəng iplərlə təmasda görmüşəm. O öz sənətinə bütün qəlbi, ruhu ilə bağlı idi. Çünki o da mənim kimi lap kiçik yaşlarından ailə üzvlərini bu sənətin içərisində görmüş və elə həmin yaşlarından bu yaradıcılıq yolunun sirlərini öyrənməyə müvəffəq olmuşdu. Uzun qış gecələrində, isti soba başında əyləşib atamın öz uşaqlığı ilə bağlı xatirələrini dinləməyim, ondan eşitdiyim əhvalatlar bu gün də yadımdadır. Həmişə deyərdi ki, qızım, mən bu sənətin sirlərini nənəm Gülsümdən və anam Xanımdan öyrənmişəm. Onlar da xalçaçılıq sənətini qəlbən sevən və böyük zəhmət bahasına bir-birindən maraqlı, rəngarəng xalçaları toxuyub ərsəyə gətirən qoçaq qadınlar idi. Elə mən də özümü dərk edəndən bəri nənəmin, anamın şirin-şəkər zümzümələrinə qulaq verib onların ilmə-ilmə necə sənət yaratdığına şahid olmuşam.



"Atanızın başqa bir peşədə, fərqli bir sahədə olmasını heç arzu etmisinizmi?" sualımıza isə müsahibimiz belə cavab verir:

– Xeyr, heç vaxt belə düşünməmişəm. Çünki atamın sayəsində mən də bu peşənin ardınca gedib, ona qəlbən bağlanmışam. Sənətkarlığın necə bir dünya olduğuna yaxşı bələdəm. O necə işini sevir, bir sənəti ortaya qoymaq üçün canla-başla çalışırdısa, bu gün mən də onun yolunu uğurla davam etdirmək üçün səy göstərirəm. Atam daxildə kəmhövsələ, səbirsiz olsa da, sənətinə, işinə bunu heç vaxt yansıtmazdı. Bəlkə də, bu onun peşəsinə göstərdiyi dərin ehtiramın nümunəsi idi. Bir məqamı böyük qürurla, fəxrlə diqqətə çatdırmaq istərdim ki, atamın 1958-ci ildə toxuduğu ilk xalça nəinki Azərbaycan, bütün Şərq poeziyasının tanınmış dühası Məhəmməd Füzulinin 400 illik yubileyinə həsr edilib. Mənim üçün bu da olduqca qürurvericidir ki, atamın yaradıcılığında ümummilli liderimiz Heydər Əliyevin obrazı xüsusi yer tutur. O, 1985, 1998 və 2004-cü illərdə görkəmli dövlət xadiminin bir-birindən fərqli portretlərini yaratmış, ulu öndərin dahi siyasi xadim, vətənpərvər və müdrik dövlət başçısı kimi silsilə obrazlarını canlandırmışdır. Bu sənət ilə xalqımızın tarixi yaddaşından gələn rənglərin, naxışların, mifik obrazların vəhdəti, gücü-qüdrəti, kompozisiyanın bədiiliyi, estetik-fəlsəfi qayəsi, monumental ruhu xalçanı və onu ərsəyə gətirən elin sənətkar oğlunu sənət zirvəsinə yüksəltmişdir. Bu gün təkcə mən yox, bütün Azərbaycan atamla fəxr edir. Ömrünü milli mədəniyyətimizin yaşadılmasına həsr edənlər əbədi yaşayır. Atamın timsalında bizim bütün sənət korifeylərimizin yolunu davam etdirmək, xalqımızın zəngin dünyasından, məişətindən xəbər verən sənətkarlıq sahələrini qoruyub saxlamaq hər birimizin borcudur. Son olaraq belə gözəl tədbirlərin təşkil edilməsində, sənət adamlarımızın mənalı və maraqlı ömür yollarının bütün gənclərimizə aşılanmasında böyük xidmətləri olan ölkə başçımız cənab İlham Əliyevə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova öz dərin minnətdarlığımı bildirir, bütün həmkarlarım adından təşəkkür edirəm.

**✍ Məcid RƏŞADƏTOĞLU**

### *İtmişdir*

Şərur rayonunun Yuxarı Aralıq kəndində yaşamış Hüseynov Zakir Rəsul oğlunun adına olan JN-160A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun İbadullah kənd sakini Mirzəyev Yaqub Həsən oğlunun adına olan JN-75A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Sərxanlı kənd sakini Quliyev Asəf Hüseyn oğlunun adına olan JN-23A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Nəsirli Famil Bəşir oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Ramiyyə Əkbərova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 1011